**UOT** 343.3/.7

**Vüqar QƏDİMOV**
*Bakı Dövlət Universitetinin*
*Cinayət hüququ və kriminologiya*
*kafedrasının doktorantı*
*e-mail: woogalle@gmail.com*
DOI: https://doi.org/https://doi.org/10.62130/JAUT2787

# CİNAYƏT QANUNVERİCİLİYİNDƏ "YAYINMA" İLƏ ƏHATƏ OLUNAN HƏRƏKƏTSİZLİK CİNAYƏTKAR DAVRANIŞ KİMİ

**XÜLASƏ**

*Obyektiv cəhətdən hərəkətsizliklə törədilən cinayətlərin sistemində özünəməxsusluğu ilə seçilən hərəkətsizliyin bir digər təzahür forması kimi "yayınma" ilə əhatə olunan cinayətkar davranış çıxış edir. Bu məqalədə qeyd edilən hərəkətsizlik forması və onun cinayət-hüquqi xüsusiyyətləri təhlil ediləcəkdir.*
***Açar sözlər:*** *tövsif, cinayət tərkibi, obyektiv cəhət, hərəkətsizlik, yayınma*

Obyektiv cəhətdən hərəkətsizliklə törədilən cinayətlər sistemində özünəməxsusluğu ilə seçilən hərəkətsizliyin digər bir təzahür forması "yayınma" ilə əhatə olunan cinayətkar davranışlardır. Cinayət qanunvericiliyində mühafizə etdiyi ictimai münasibətlər baxımından "yayınma" ilə əhatə olunan hərəkətsizlik, əsasən, Cinayət Məcəlləsinin Xüsusi hissəsinin "İqtisadi sahədə cinayətlər" adlı IX bölməsində və "İqtisadi fəaliyyət sahəsində olan cinayətlər" adlı 24-cü fəslində öz əksini tapmışdır. Belə ki, cari məqalədə məhz bu kateqoriya cinayətlərin cinayət tərkibi əlamətləri və onların hərəkətsizliklə törədilmə formaları (təmiz və ya qarışıq) təhlil ediləcəkdir.

Cinayət-hüququ baxımdan "yayınma" ilə əhatə olunan hərəkətsizliyə anlayış verməzdən öncə onun ümumhüquqi, xüsusən də mülki-hüquqi məzmununa nəzər salmaq zəruridir. Belə ki, hələ XIX əsrdə alman kriminoloqu A.Feyerbax qeyd edirdi ki, "Qanunsuz olaraq hərəkətlə törədilən cinayətlərdən (delikta commissionis) fərqli olaraq, icra etməmə (yayınma) (delikta ommissionis) hərəkətsizliklə ifadə olunur" [13, s.147]. Cəmiyyətin mülki hüquq və fəaliyyət qabiliyyətli subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən mülki hüquqda hərəkətin edilməsi (gözlənilməsi) və hərəkətsizliyin (yayınmanın) nəticələri ən mötəbər şəkildə öhdəlik hüququnda təhlil edilə bilər. Bunun üçün öhdəliyin anlayışına nəzər salmaq və onun əmələ gəlmə əsaslarına diqqət yetirmək lazımdır. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (bundan sonra Mülki Məcəllə) əsasən, öhdəliyə mülki-hüquqi məzmundan leqal anlayış verilmişdir. Belə ki, həmin Məcəllənin "Öhdəliyin anlayışı" adlı 385-ci maddəsində qeyd edilir ki: "öhdəliyə uyğun olaraq bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, misal olaraq, pulu ödəməli, əmlakı verməli, işi görməli, xidmətləri göstərməli və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır" [3, s.236].

Digər tərəfdən qeyd etmək lazımdır ki, öhdəliyin yaranma əsasını başlıca olaraq müqavilə (ex contracu) və hüquqpozmadan (ex delicto) irəli gələn ictimai münasibətlər təşkil edir. Bununla belə, klassik roma hüquqşünasları arasında öz nüfuzu ilə seçilən Qay, özünün "Aurea" əsərində yazırdı ki, öhdəliyin yaranma əsasını sadəcə müqavilə və hüquqpozmalardan irəli gələn ictimai münasibətlər təşkil etmir. O qeyd edirdi ki, həyatın gedişində nə müqaviləyə, nə də hüquqpozma-

ya əsaslanan öhdəlik yarana bilər: bütün bunlara isə “ex variis causarum figuris”, yəni müxtəlif əsaslardan yaranan öhdəlikləri aid edə bilərik. Onun öhdəliklərin yaranma əsasına dair dördhədli təsnifatına müqavilədən irəli gələn; sanki müqavilədən irəli gələn; deliktdən (hüquqpozmadan) irəli gələn; sanki deliktdən (hüquqpozmadan) irəli gələn öhdəliklər aid idi [10, s.144]. Bu təsnifat hər nə qədər mübahisəli olsa da, sanki müqavilədən irəli gələn öhdəliklərə “özgə işlərini tapşırıqsız aparma”nı, sanki deliktdən (hüquqpozmadan) irəli gələn öhdəliklərə isə “əsassız varlanma”nı uyğun saya bilərik.

Mülki hüquq baxımından yayınma ilə əhatə olunan hərəkətsizliyə anlayış verəsi olsaq, qeyd edə bilərik ki, “yayınma” öhdəlik institutu daxilində öhdəliklərin icra edilməməsinin zahiri tərəfi kimi çıxış edərək məsuliyyət yaradır və mülki hüquq sahəsində özünəməxsusluğu ilə seçilir.

Cinayət hüququnda “yayınma” ilə əhatə olunan hərəkətsiz davranışa leqal anlayış verilmədiyindən, ayrı-ayrı cinayətlərin dispozisyasının quruluşuna uyğun olaraq, qəsd etdiyi ictimai münasibətlər baxımdan ona anlayış vermək mümkündür. Nəzərə almaq lazımdır ki, hərəkətsizliyin digər təzahür formaları (kömək göstərməmə, boyun qaçırma və s.) ilə birlikdə götürüldükdə, qeyd edilən formalar şərti xarakter daşıyır və cinayət hüquqi kateqoriya kimi hərəkətsizliyin mahiyyətindən irəli gəlir. Bu əsasda qeyd edilənlərə uyğun olaraq, yayınmaya cinayət-hüquqi baxımdan anlayış verəsi olsaq deyə bilərik ki, müvafiq əsasla şəxs üçün müəyyən edilmş öhdəliklərin yerinə yetirilməməsi, habelə lazımınca yerinə yetirilməməsi ilə ictimai-təhlükəli əməllərə qəsd edilməsi yayınma formasında cinayətkar və hərəkətsiz davranışı əmələ gətirir. Cinayət Məcəlləsinin Xüsusi hissəsinin strukturunda yayınma ilə əhatə olunan cinayətlərə aiddir:

- Maddə 196. Kreditor borclarını ödəməkdən qəsdən yayınma;
- Maddə 209. Gömrük ödənişlərinin ödənilməsindən yayınma;
- Maddə 213. Vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma;
- Maddə 213-2. Qiymətli metalları və qiymətli daşları dövlətə satmaqdan yayınma;
- Maddə 303.2.... əmlakın müsadirə olunması barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün (qərarının) icra olunmasından başqa cür yayınma.

Yuxarıda qeyd edilənlərdən bir daha aydın olur ki, yayınma ilə əhatə olunan cinayətlərdən sadəcə biri (Cinayət Məcəlləsi, maddə 303) “Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər” adlı XI bölməsinin “Ədalət mühakiməsi əleyhinə olan cinayətlər” adlı 32-ci fəslində, qalanları isə, əvvəldə qeyd etdiyimiz kimi, Cinayət Məcəlləsinin IX bölmə və 24-cü fəslində təsbit edilmişdir.

***Kreditor borclarını ödəməkdən qəsdən yayınma*** cinayəti-Cinayət Məcəlləsinin 196-cı maddəsində bir əsas tərkibdə, bir ağırlaşdırıcı tərkibdə ilk dəfə (bundan əvvəlki Cinayət Məcəllələrində mövcud olmamışdır) təsbit olunmuşdur. Cinayətlərin kateqoriyasında qeyd edilən əməl az ağır cinayətlərə daxil edilir.

Təhlil olunan maddəyə əsasən, kreditor borclarına əsaslanan öhdəlik mövcuddursa, kreditor həmin öhdəliyə uyğun olaraq borcludan müəyyən vəzifələrin yerinə yetirilməsini tələb etməkdə haqlıdır. Belə ki, Mülki Məcəllənin “Öhdəliyin icra edilməməsi anlayışı”na dair 442-ci maddəsinə əsasən, öhdəliyin icra edilməməsi (ondan yayınma) dedikdə, onun pozulması və ya lazımınca icra edilməməsi (vaxtında icra edilməməsi, mallarda, işlərdə və xidmətlərdə qüsurlarla və ya öhdəliyin məzmunu ilə müəyyənləşdirilmiş digər şərtləri pozmaqla icra edilməsi) başa düşülür. Bu vəzifələrin yerinə yetirilməməsinin hərəkətsizlik formasında təzahürü borclunu kreditor qarşısında məsuliyyətli edir. Belə ki, həmin Məcəllənin “Öhdəliklərin icra edilməməsi üçün borclunun məsuliyyəti” adlı 448-ci maddəsinə əsasən, borclu öz öhdəliklərinin hər bir təqsirli pozuntusu (hərəkət və ya hərəkətsizlik) üçün məsuliyyət daşıyır [3, s.259].

Təhlil olunan cinayət əsas tərkibdə “məhkəmənin qanuni qüvvəyə minmiş müvafiq qərarına əsasən təşkilat rəhbərinin və ya vətəndaşın kreditor borclarını, yaxud qiymətli kağızları ödəməkdən qəsdən yayınması xeyli miqdarda ziyan vurulması” ilə müşayiət olunur [2, s.191]. Cinayətin obyektiv cəhətinin zəruri əlaməti kimi, “məhkə-

mənin qanuni qüvvəyə minmiş müvafiq aktı çıxış edir ki, bu da təhlil olunan cinayət əməli ilə Cinayət Məcəlləsinin 306-cı maddəsində təsbit edilən məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə tərkibi ilə rəqabətini yaradır. Belə ki, bu norma CM-in 306-cı maddəsinin xüsusi norması kimi çıxış edir.

Kreditor borclarını ödəməkdən qəsdən yayınma əməli yalnız öhdəliklərin icra edilməməsinin məzmunundan irəli gələn kreditor borclarını deyil, həm də qiymətli kağızları da ehtiva edir. Belə ki, Azərbaycan Respublikasının 24 noyabr 1992-ci il tarixli "Qiymətli kağızlar və fond birjaları haqqında" Qanununun 1-ci maddəsinə əsasən, qiymətli kağızlar dedikdə, qiymətli kağız sahibinin emitent barəsində əmlak hüquqlarını və ya borc münasibətlərini təsdiqləyən pul sənədidir [6]. Mülki Məcəllənin 998.5-ci maddəsinə əsasən, qiymətli kağızın mülkiyyətçisi qiymətli kağızda aldatma və ya saxtalaşdırma aşkar etdikdə kağızı ona vermiş borcluya qarşı qiymətli kağızla təsdiqlənmiş öhdəliyin lazımınca yerinə yetirilməsi və zərərin əvəzinin ödənilməsi tələbini irəli sürə bilər [3, s.439].

Bu maddə üzrə "yayınma" dedikdə, qanuni qüvvəyə minmiş məhkəmə aktı üzrə müəyyən edilmiş öhdəliyin icra edilməməsi ilə müşayiət olunan hərəkət və ya hərəkətsizlik başa düşülür [8, 92].

Belə ki, müvafiq öhdəliyin vaxtında icra edilməməsi, müvafiq icra qurumundan gəlməmək və s. hərəkətsizliklə törədilən yayınmaya misal ola bilər. Əgər borclu məhkəmə iclaslarından yayınırsa və çağırış üzrə gəlməkdən imtina edirsə, qeyd edilən cinayətə görə məsuliyyət yaranmayacaqdır. Göstərilən nümunələr məhz qanuni qüvvəyə minmiş məhkəmə aktının icra edilməməsi ilə məsuliyyət yaradır.

Maddi tərkibli bu cinayət əsas tərkibdə xeyli miqdarda (əlli min manatdan yuxarı, lakin iki yüz min manatdan artıq olmayan) ziyanı, ağırlaşdırıcı tərkibdə külli miqdarda (iki yüz min manatdan artıq olan məbləğ) ziyanın vurulması ilə başa çatmış sayılır. Bu əsasda qeyd edilən cinayət, hərəkətsizliklə törədilən əməllərin təsnifatında ictimai təhlükəli nəticənin zəruriliyindən irəli gələrək qarışıq hərəkətsizlik ilə törədilir.

***Gömrük ödənişlərinin ödənilməsindən yayınma*** cinayəti Cinayət Məcəlləsinin 209-cu maddəsində bir əsas tərkibdə, bir ağırlaşdırıcı tərkibdə və bir də xüsusilə ağırlaşdırıcı tərkibdə təsbit olunmuşdur. Cinayətlərin kateqoriyasında təhlil edilən əməl az ağır cinayətlərə aiddir [2, s.207].

Blanket xarakterli dispozisiyaya malik olan bu cinayət hüquq normasında cinayətin predmetini gömrük ödənişləri təşkil edir. Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə əsasən, gömrük ödənişləri dedikdə, gömrük orqanları tərəfindən alınan gömrük rüsumları, vergilər, gömrük yığımları, dövlət rüsumu və haqq başa düşülür [4, s.168]. Gömrük ödənişlərinin siyahısı, həmçinin Gömrük Məcəlləsinin 224.1-ci maddəsində təsbit edilmişdir: gömrük rüsumları; əlavə dəyər vergisi; aksizlər; yol vergisi; gömrük yığımları; haqq; dövlət rüsumu.

Gömrük qanunvericiliyinə əsasən, gömrük borcunun ödənilməsi müddətləri qanunla tənzimlənir. Belə ki, gömrük borcu gömrük orqanları tərəfindən Gömrük Bəyannaməsi təsdiq edilənədək və ya gömrük bəyannaməsinin təsdiqi ilə eyni vaxtda ödənilir. Kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar üzrə gömrük borcu, onlar gömrük sərhədindən keçirilərkən sadələşdirilmiş bəyannamənin təsdiqi ilə eyni vaxtda ödənilir. Gömrük Bəyannaməsinin verilməsi gecikdirildikdə, gömrük borcunun ödənilməsi müddəti Gömrük Bəyannaməsinin verilməsi üçün müəyyən edilən müddətin başa çatdığı gündən hesablanır. Bu Məcəllənin 156.2-ci maddəsində nəzərdə tutulan dövri bəyannamə verildiyi halda, gömrük borcu mallar müvafiq gömrük orqanına təqdim olunduğu tarixdən 15 (on beş) gündən gec olmayaraq ödənilməlidir [4, s.92].

Təhlil olunan cinayət üzrə "yayınma" dedikdə, həm hərəkət, həm də hərəkətsizliklə müvafiq gömrük ödənişlərini ödəməmə başa düşülür. Hərəkətsizliklə törədilməyə misal olaraq, gömrük qanunvericiliyində müəyyən edilmiş müddətlər ərzində həmin ödənişlərin ödənilməməsi aid edilə bilər.

Gömrük ödənişlərinin ödənilməsindən yayınma əməli formal tərkibli cinayət tərkibinə malikdir. Belə ki, cinayətlərin törədilmə vaxtı, qanunvericilikdə müəyyən edilmiş müddətdə ödənişlə-

rinin edilməməsi ilə başa çatmış sayılır. Bununla belə, qeyd edilən əmələ görə cinayət məsuliyyətinin yaranması üçün qanunverici xüsusi miqdar müəyyən etmişdir. Belə ki, əsas tərkib üzrə xeyli miqdarda gömrük ödənişlərinin ödənilməsindən yayınmaya görə məsuliyyətin **yaranması** üçün ödənilməmiş gömrük ödənişlərinin iyirmi min manatdan yuxarı, lakin iki yüz min manatdan artıq olmayan məbləğin olmaması zəruridir, ağırlaşdırıcı tərkibdə "külli miqdar" dedikdə, iki yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ başa düşülür. "Xüsusilə külli miqdarda" gömrük ödənişlərinin ödənilməsindən (təkrar) yayınma dedikdə, beş yüz min manatdan yuxarı olan məbləği başa düşülür [12, s.751].

Cinayət Məcəlləsinin 209.2.1-ci maddəsində xeyli miqdarda gömrük ödənişlərinin ödənilməsindən yayınmanın təkrar törədilməsi nəzərdə tutulmuşdur. Burada təkrarlığın yaranması üçün ilkin və ya sonrakı əməllərin eyni törədilmə üsulu ilə (hərəkət və ya hərəkətsizlik) törədilməsi mütləq deyildir. Təhlil oluna cinayət hərəkətsizliyin təsnifatında təmiz hərəkətsizliklə müşayiət olunur.

***Vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma*** cinayəti Cinayət Məcəlləsinin 213-cü maddəsində bir əsas tərkibdə, bir ağırlaşdırıcı tərkibdə, bir də xüsusilə ağırlaşdırıcı tərkibdə təsbit edilmişdir. Cinayətlərin kateqoriyasına uyğun olaraq, bu əməl ağır cinayət kimi qiymətləndirilə bilər.

Vergilər və başqa dövlət ödənişlərinə dair öhdəliklərin yerinə yetirilməsi vəzifəsi konstitusion norma kimi təsbit edilmişdir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur [1, s.24]. Təhlil olunan cinayətin predmetini vergilər, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqları təşkil edir.

Cinayət Məcəlləsinin 213-cü maddəsi obyektiv cəhətdən həm hərəkət, həm də hərəkətsizliklə törədilə bilər. Cari araşdırmaya uyğun olaraq, bu cinayət üzrə hərəkətsizliklə ifadə olunan yayınmaya aiddir: şəxsin bilə-bilə, yəni qəsdən vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməməsi və bundan yayınması. Qeyd etmək vacibdir ki, təhlil olunan cinayət üzrə məsuliyyətin yaranması üçün subyektiv meyar çox vacibdir. Belə ki, xüsusi subyekt olan şəxs həyati çətinliklərə (uzun sürən ağır xəstəlik və s.) görə müvafiq öhdəliklərini yerinə yetirmirsə, onun əməli qeyd edilən cinayət üzrə istisna olunur [8, s.128].

Vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma cinayəti formal tərkibli cinayətdir. Belə ki, müvafiq qanunvericiliyə uyğun olaraq, qeyd olunan ödənişlər müəyyən edilmiş vaxtda ödənmədikdə məsuliyyətə səbəb olur. Təhlil olunan cinayət blanket xarakterli dispozisiyada nəzərə tutulduğundan, Cinayət Məcəlləsi ilə cinayət **məsuliyyətinin** yaranması digər qanunvericilik aktlarında qeyd edilmişdir. Misal olaraq, Vergi Məcəlləsinin 53-cü maddəsinə əsasən, bu Məcəllə ilə müəyyən edilmiş vergi ödəyiciləri, vergi agentləri və onların nümayəndələri, habelə vergi orqanlarının vəzifəli şəxsləri vergi qanunvericiliyinin pozulmasına görə bu Məcəllə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar [5, s.42]. Bu əsasda deyə bilərik ki, təhlil olunan cinayətin hərəkətsizlikdən törədilmə forması təmiz hərəkətsizliyi ehtiva edir.

Qeyd edilən cinayət üzrə məsuliyyətin yaranması üçün ödənişlərə dair məbləğ müəyyən edilmişdir. Belə ki, Cinayət Məcəlləsinin 213-cü maddəsinin "Qeyd" hissəsinə əsasən, əsas tərkibdə "xeyli miqdar" dedikdə, əlli min manatdan yuxarı, lakin iki yüz min manatdan artıq olmayan məbləğ, ağırlaşdırıcı tərkibdə "külli miqdar" dedikdə iki yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, xüsusilə ağırlaşdırıcı tərkibdə "xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür [9, s.538].

***Qiymətli metalları və qiymətli daşları dövlətə satmaqdan yayınma*** cinayəti Cinayət Məcəlləsinin 213-2-ci maddəsində bir əsas tərkibdə təsbit

olunmuşdur. Cinayətlərin kateqoriyasında təhlil edilən cinayət az ağır cinayətlər kateqoriyasına daxildir. Təhlil olunan bu cinayət yalnız hərəkətsizliklə törədilən yayınma ilə müşayiət olunur.

Törədilməsi ilə dövlətin maliyyə-iqtisadi mənafelərinə ziyan vuran bu əməlin predmeti qismində qiymətli metallar, qiymətli daşlar, standarta uyğun affinaj edilmiş qiymətli metallar, habelə rekuperasiya edilmiş qiymətli daşlar çıxış edir. Blanket xarakterli normada ifadə olunan bu predmetlərin hər birinə Azərbaycan Respublikasının 10 iyun 2005-ci il tarixli "Qiymətli metallar və qiymətli daşlar haqqında" Qanunun 1-ci maddəsində anlayış verilmişdir. Misal olaraq, bu Qanunun 1.1.2-ci maddəsinə əsasən, qiymətli daşlar dedikdə, işlənilmiş və işlənilməmiş şəkildə olan təbii almazlar, zümrüdlər, yaqutlar, sapfirlər, aleksandritlər başa düşülür [7].

Təhlil olunan cinayətin obyektiv cəhəti xüsusi subyektlər tərəfindən, yəni bu cinayətlə əhatə olunan predmetləri hasil və istehsal edən şəxslər tərəfindən xeyli miqdarda törədilməklə onları ilkin olaraq dövlətə satmaqdan yayınmada ifadə olunur. Cinayət qanunu ilə mühafizə edilən bu öhdəlik "Qiymətli metallar və qiymətli daşlar haqqında" Qanunun 4.5-ci maddəsinin məzmunundan irəli gəlir. Belə ki, həmin maddəyə əsasən, yerin təkindən hasil olunmuş qiymətli metallar və qiymətli daşlar, standarta uyğun affinaj edilmiş qiymətli metallar, habelə rekuperasiya edilmiş qiymətli daşlar çeşidlənmiş şəkildə satılarkən onları hasil və istehsal etmiş subyektlər həmin qiymətli metalları və qiymətli daşlar Azərbaycan Respublikasının qızıl ehtiyatını doldurmaq üçün, ilk növbədə, müvafiq icra hakimiyyəti orqanına qanunvericiliklə müəyyən edilmiş qaydada təklif edilməlidir [7]. Buradan da göründüyü kimi, qanunla xüsusi subyektlər tərəfindən onların üzərinə qoyulmuş öhdəliyin yerinə yetirilməməsi, qeyd edilən əməlin passiv hərəkətsizliklə (təklifi verməmə və ya satmama) cinayət məsuliyyətinə səbəb olmasına şərait yaradır.

Digər tərəfdən, təhlil olunan cinayətin təsbit olunduğu maddənin adından elə aydın olur ki, sanki xüsusi subyektlər mütləq şəkildə qeyd edilən predmetləri dövlətə satmalıdırlar. Lakin burada həmin şəxslərin qeyd edilən predmetləri mütləq satmaq öhdəliyi mövcud deyildir. Yuxarıda qeyd edilən Qanunun 10.2-ci maddəsinə əsasən, affinaj edilmiş qiymətli metallar qanunvericiliklə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının qiymətli metalların və qiymətli daşların ehtiyatlarının doldurulması məqsədilə dövlət büdcəsi vəsaiti hesabına ölkə daxilində və xaricdə tədarük edilə bilər. Müvafiq standarta uyğun şəkildə affinaj edilmiş qiymətli metallar, habelə yerin təkindən hasil olunmuş yaxud rekuperasiya edilmiş qiymətli daşlar çeşidlənmiş şəkildə satılarkən, ilk növbədə, bu qanunun 4.5-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının qiymətli metalların və qiymətli daşların ehtiyatlarının doldurulması üçün müvafiq icra hakimiyyəti orqanına təklif olunur [7]. Buradan da məlum olur ki, cari predmetləri hasil və istehsal edən xüsusi subyektlər bu predmetləri satmaq istədikdə ilk növbədə dövlətə təklif verməmə və satmama onlar barəsində məsuliyyətə səbəb ola bilər, yəni dövlətdən öncə digər şəxslərə təklif verdikdə və satdıqda onların cinayət məsuliyyətindən danışmaq olar. Həmçinin, bu şəxslərin öz mülkiyyətində qeyd edilən predmetləri saxlaması Cinayət Məcəlləsinin 213-2-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb ola bilməz. Digər tərəfdən, verilmiş təklifə dövlət tərəfindən cavab gəlmədiyi, habelə gələn cavabın subyektin qanunvericiliklə nəzərdə tutulan mənafelərini pozduğu təqdirdə, qeyd edilən predmetlərin başqa şəxslərə təklif verilməsi və ya satılması qeyd edilən maddə ilə məsuliyyəti istisna edir [8, s.142].

Formal tərkibli bu cinayət xüsusi subyektlərin bəhsi keçən predmetləri ilkin olaraq dövlətə satmaqdan yayındığı, yəni dövlətdən öncə digər şəxslərə təklif etdiyi və ya satdığı andan törədilmiş sayılır. Bununla belə, qanunverici əsas tərkibdə ifadə olunan "xeyli miqdar" ifadəsində, bu cinayətin təsbit olunduğu maddənin "Qeyd" hissəsində aydınlıq gətirmişdir. Belə ki, cari maddə ilə şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün, onun əməli yeddi min manatdan artıq olan məbləğ ehtiva etməlidir [2, s.214]. Təhlil olunan cinayət hərəkətsizliyin təsnifatında təmiz hərəkətsizliklə müşayiət olunur.

***Əmlakın müsadirə olunması barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün (qə-***

***rarının) icra olunmasından başqa cür yayınma*** cinayəti yuxarıda təhlil olunan cinayətlərdən mühafizə etdiyi ictimai münasibətlər və struktur baxımından fərqliliyi ilə seçilərək, Cinayət Məcəlləsinin 303.2-ci maddəsində təsbit olunmuşdur. Cinayətlərin kateqoriyasında təhlil olunan əməl az ağır cinayətlər kateqoriyasına aiddir.

Öncəliklə qeyd etməliyik ki, Cinayət Məcəlləsinin 303-cü maddəsi "Siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş, yaxud müsadirə olunmalı əmlak barəsində qanunsuz hərəkətlər" adlansa da, bu maddədə iki müstəqil cinayət-hüquq norması (maddə 303.1 və 303.2) təsbit edilmişdir. Onlardan yalnız biri (303.2) yayınma ilə əhatə olunan hərəkətsizliyi ifadə edir.

Cinayət Məcəlləsinin 303.2-ci maddəsi obyektiv cəhətdən məhkəmənin hökmünə (qərarına) əsasən müsadirə edilməli olan əmlakı gizlətmə və ya mənimsəmə, habelə əmlakın müsadirə olunması barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün (qərarının) icra olunmasından başqa cür yayınmada ifadə olunur [9, s.734]. Burada ifadə olunan "başqa cür yayınma" ifadəsi əvvəldə qeyd edilən "məhkəmənin hökmünə (qərarına) əsasən müsadirə edilməli olan əmlakı gizlətmə və ya mənimsəmə" əməllərinin də yayınma ilə müşayiət olunduğunu bildirir. Bu əsasda deyə bilərik ki, təhlil edilən cinayət üzrə yayınma həm hərəkət, həm də hərəkətsizliyi ifadə edə bilər. Bu cinayətin obyektiv cəhətində hərəkətsizliklə müşayiət olunan yayınma bilavasitə göstərilməsə də, şəxsin icra məmurlarını aldadaraq müəyyən edilmiş vaxtda və yerə gəlməməsi başqa cür yayınmaya misal ola bilər.

Digər tərəfdən təhlil olunan cinayətin obyektiv cəhətinin məzmunundan irəli gələrək deyə bilərik ki, Cinayət Məcəlləsinin 303.2-ci maddəsi ilə 306-cı maddəsi rəqabət yarada bilər və 303.2-ci maddə xüsusi norma kimi qiymətləndirilə bilər. Belə ki, "əmlakın müsadirə olunması barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün (qərarının) icra olunmasından başqa cür yayınma" elə həmin hökmünün (qərarının) icra olunmaması ilə müşayiət olunur. Cinayət Məcəlləsinin 303.2-ci maddəsində yayınma ilə ifadə oluna bilən hərəkətsizlik müvafiq təsnifata uyğun olaraq təmiz hərəkətsizliklə törədilir.

Milli cinayət qanunvericiliyində "yayınma" ilə əhatə olunan cinayətkar davranışların təsbit olunduğu cinayət əməllərinin qısa təhlilindən müəyyən olundu ki, yayınma ilə əhatə olunan cinayətlər həm hərəkət, həm də hərəkətsizliklə törədilə bilər, hansı ki, bunlar obyektiv cəhətin zəruri əlamətidir [11, s.22]. Cari məqalədə yayınma ilə əhatə olunan cinayətlər hərəkətsizliklə törədilən cinayətlərin sistemində səciyyələndirilərək, müvafiq təsnifatda təhlil olundu. Buna müvafiq olaraq deyə bilərik ki, hərəkətsizliyin təsnifatında Cinayət Məcəlləsinin 209, 213, 213-2, 303.2-ci maddələrində yayınma ilə ehtiva olunan hərəkətsizlik təmiz, 196-cı maddədə isə qarışıq formanı bildirir.

Cari araşdırmaya uyğun olaraq, Cinayət Məcəlləsinin 196-cı maddəsinin məzmunundan irəli gələrək onun 306-cı maddəyə münasibətdə xüsusi norma kimi çıxış etməsinə əsaslanaraq hesab edirik ki, qanunverici 196-cı maddəni Cinayət Məcəlləsinin 32-ci fəsli olan "Ədalət mühakiməsi əleyhinə cinayətlər" fəslinə gətirməlidir. Digər tərəfdən, Cinayət Məcəlləsinin 306-cı maddəsi ilə müqayisə etdikdə, hüquqi-texniki tərtibata uyğun olaraq, maddə adının "Kreditor borcları və qiymətli kağızlar üzrə məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə" olaraq dəyişdirilərək, ayrıca cinayət əməli kimi təsbit edilməsinin tərəfdarıyıq.

Hərəkətsizliklə törədilən yayınma ilə müşayiət olunan qiymətli metalları və qiymətli daşları dövlətə satmaqdan yayınma əməlinin təsbit olunduğu maddə adının da qüsurlu olduğu qənaətindəyik. Belə ki, həmin maddənin təhlilinə uyğun olaraq cari maddə adının "Qiymətli metalları və qiymətli daşları ilk növbədə dövlətə təklif etmə və ya satmadan yayınma" kimi təsbit edilməsini təklif edirik.

Həmçinin Cinayət Məcəlləsinin 303-cü maddəsinin həm adının, həm də strukturunun mötəbər olmadığı qənaətindəyik. Belə ki, maddə adında "qanunsuz hərəkətlər" ifadəsi 303.2-ci maddəsinin məzmununa uyğun gəlmir. Digər tərəfdən 303.2-ci maddəni 306-cı maddə ilə müqayisə etdikdə, xüsusi norma kimi bu əməlin 306-cı maddənin daxilində kriminallaşdırılmalı olduğu qənaətindəyik.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın evi, 2023, 64 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Qanun Nəşriyyatı, 2024, 488 s.
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: Qanun Nəşriyyatı, 2023, 704 s.
4. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı: Qanun Nəşriyyatı, 2023, 280 s.
5. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: Qanun Nəşriyyatı, 2023, 780 s.
6. Azərbaycan Respublikasının "Qiymətli kağızlar və fond birjaları haqqında" Qanunu. *https://e-qanun.az/framework/7941*
7. Azərbaycan Respublikasının "Qiymətli metallar və qiymətli daşlar haqqında" Qanunu. *https://e-qanun.az/framework/10851*
8. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. Prof. F.Y.Səməndərovun redaktəsi ilə (CM-ə edilmiş əlavə və dəyişiklikləri şərh edən h.ü.f.d. B.C.Kərimov). Bakı: Hüquq Yayın Evi, 2023, II hissə, 872 s.
9. Ağayev İ.B. Azərbycan Respublikasının Cinayət hüququ. Ümumi və Xüsusi Hissələr. Dərslik. Bakı: Nurlar, 2010, 832 s.
10. Əkbərov R.A. Hüquq elminin tarixi və metodologiyası. Bakı: Qanun Nəşriyyatı, 2023, 320 s.
11. Səmədova Ş.T., Bayramova M.N., Rzayeva S.N., Musayeva A.T., Nəzərova K.O., Cinayət hüququ. Dərs vəsaiti. Bakı: "Mütərcim", 2022, 176 s.
12. Самедова Ш.Т. Уголовное право Азербайджанской Республики. Особенная часть: в двух частях. Баку: Адильоглы, 2020, т.1 – 824 с; т.2 – 864 с.
13. Урубжуров М.С. Понятие и границы бездействия в уголовном праве России // Тенденции развития науки и образования. Ростов-на-Дону. 2021. № 73-5. С. 147-150.


**Вугар ГАДИМОВ**

## БЕЗДЕЙСТВИЕ КАК УГОЛОВНОЕ ПОВЕДЕНИЕ, ПОДПАДАЮЩЕЕ ПОД "ИЗБЕЖАНИЕ" В УГОЛОВНОМ ПРАВЕ

### РЕЗЮМЕ

Другим проявлением преступного бездействия, отличающимся своей уникальностью в системе преступлений, совершаемых посредством бездействия объективной стороны, является преступное поведение, охватываемое «уклонением». В данной статье будет проанализирована объективная сторона преступлений, в которых обнаруживается данное преступное бездействие, и их место в классификации преступного бездействия.

***Ключевые слова:*** квалификация**,** состав преступления, объективная сторона, бездействие, уклоняться.

**Vugar GADİMOV**

## OMISSION AS CRIMINAL CONDUCT COVERED BY "AVOIDANCE" IN CRIMINAL LAW

### SUMMARY

Another manifestation of criminal omission, distinguished by its uniqueness in the system of crimes committed by the omission of objective aspect, is criminal behaviour covered by "avoidance". In this article, the objective aspect of crimes in which this criminal omission is detected and their place in the classification of criminal omission will be analyzed.

***Key words:*** qualification**,** criminal composition, objective aspect, omission, evade.